Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 49 **QƏRAR** Bakı şəhəri, 16 fevral 2016-cı il

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 noyabr tarixli 180 nömrəli qərarı ilə təsdiq edilmiş "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə dəyişikliklər edilməsi barədə

"Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1283-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 1239 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 noyabr tarixli 180 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1182; 2013, № 6, maddə 764) ilə təsdiq edilmiş "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 6-cı hissə üzrə:

1.1. adı aşağıdakı redaksiyada verilsin:

"Cəmiyyətdə uçot, hesabat və nəzarət";

1.2. aşağıdakı məzmunda 6.4-1-ci bənd əlavə edilsin:

"6.4-1. İdarə Heyətinin sədri və ya üzvləri, habelə Cəmiyyətin struktur bölmələrinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərləri özlərinin, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.6-cı və 49-1.7-ci maddələrində nəzərdə tutulmuş qaydada təqdim etməlidirlər.".

2. Aşağıdakı məzmunda 7.6.6-1-ci və 7.6.6-2-ci yarımbəndlər əlavə edilsin:

"7.6.6-1. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin (müstəqil auditorun rəyi əlavə olunmaqla) bağlanılması haqqında qərar qəbul edilməsi üçün Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə müraciət edir;

7.6.6-2. aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edir;".

3. 8.1.7-ci yarımbəndə "müqavilələr" sözündən əvvəl "bu Nizamnamənin 7.6.6-1-ci və 7.6.6-2-ci yarımbəndlərinin tələbləri nəzərə alınmaqla" sözləri əlavə edilsin.

4. 12-ci hissənin mətnindən sonra aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Bu Nizamnamədə dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.".

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***